

# Dastanlara sığmayan qəhrəmanlıq

*25 aprel Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Azərbaycanın Milli Qəhrəmanı, "Vətən Övladı" və "Həzi Aslanov" ordenli Albert Aqarunoviç Aqarunovun doğum günüdür. Yaşasaydı, 56 yaşı tamam olacaqdı. Amma düşünürəm ki, belə insanlar haqqında "yaşasaydı" demək heç də doğru deyil. Çünki onun kimi qəhrəmanlar heç vaxt ölmürlər, qəlbimizdədirlər - şücaəti, hünəri, ölməzliyi ilə.*

Qeyd edim ki, bu günə qədər əziz həmkarım, tanınmış hərbi jurnalist Ötərxan Eltacla birgə (o, müəllif-aparıcı, mən isə rejissor kimi) Azərbaycan radiosunda hazırladığımız "Vətən yaşasın" verilişinin, "Vətən mənə oğul dedi" rubrikasının bir neçə sayını A.Aqarunova həsr etmişik.

Biz Albert Aqarunovu ilk dəfə 1992-ci illər Birinci Qarabağ müharibəsində cəbhə bölgəsindən hazırlanan müsahibələrdən tanımışıq. Mən onda 8-ci sinifdə oxuyurdum. Albertin yurd sevgisi, hünəri, qorxmazlığı xüsusi qeyd olunurdu. Onu da bilirdik ki, əslən Quba rayonunun Qırmızı qəsəbəsindən olan, uşaqlığı Əmircanda keçən, səkkiz qardaşı və iki bacısı olan Albert ailənin sonbeşiyi idi. O, Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq cəbhəyə yola düşərək tank briqadasının tərkibində Ağdam, Cəbrayıl, Laçın, Füzuli bölgələrində erməni yaraqlılarına qarşı sinəsini sipər etmiş, cəsarəti və qorxmazlığı ilə fərqlənmiş, düşmənin bir neçə tankı və zirehli transpartyorunu sıradan çıxarmışdır. Hətta erməni silahlılarına aid iki tank bir-birinə yaxın məsafədə olan zaman bir mərmi ilə hər iki tankı yerindəcə məhv etmişdir. Aqarunovun məharəti nəticəsində bir-birinə pərçimlənən tankları "buterbrod"a bənzətmişdilər.

Albert sonradan tank komandiri kimi Şuşaya yollanmış və bu şəhərin xilası uğrunda gedən döyüşlərdə şəhəri müdafiə edən əsgərlərdən olmuşdur. O, Şuşada müharibənin ilk tank döyüşündə iştirak edərək erməni komandirini məğlub etmişdir. Lakin Şuşa-Laçın yolu ilə irəliləyərkən tankdan enən Albert həlak olanların üzərindən keçməsin deyə sürücüyə yol göstərərkən namərd snayper gülləsi onun ömrünə son qoymuşdur. O, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdü.



Azərbaycanın qürur simvoluna çevrilən Aqarunovun xatirəsi ehtiramla yad edilir. Onun haqqında filmlər çəkilib, əsərlər qələmə alınıb. 2010-cu ildə "Salnamə" sənədli filmlər studiyasının çəkdiyi "Dostuma məktub" filmini, 2017-ci ildə Səadət Şükürovanın "Yaşadığım torpaq" sənədli filmini, 2024-cü ildə isə Kanadada fəaliyyət göstərən "ELTV" Media Qrupu və "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Tank 533. Albert Aqarunov" adlı qısametrajlı filmini xatırlatmaq istərdim.

Zaman keçəcək. Günlər ayları, aylar da illəri əvəzləyəcək. Əminəm ki, Albert Aqarunovun torpaq, yurd sevgisi, hünəri, şücaəti, qorxmazlığı, qəhrəmanlığı yaranacaq neçə-neçə yeni əsərlərin mövzusu olacaq.

Ruhu şad olsun!

**Anar MƏMMƏDOV,**
**Bakı Dövlət Universitetinin dosenti.**